*T.Rüstəmxanlı. Cümhuriyyət dövrü ədəbiyyatında milli oyanışın tərənnümü // Əlyazmalar yanmır, 2019, № 2 (9), s.56-62.*

UOT: 82.0

**Tənzilə Rüstəmxanlı**
*filologiya üzrə fəlsəfə doktoru, Azəri-Türk Qadınlar Birliyinin sədri,*
*Azərbaycan-Türkiyə Evi*
*Bakı ş. 528-ci məhəllə, Ə.Ələkbərov/M.Rahim küç."D"*
*e-mail: azeriturk@mail.ru*

# CÜMHURİYYƏT DÖVRÜ ƏDƏBİYYATINDA MİLLİ OYANIŞIN TƏRƏNNÜMÜ

*AXC-nin qısa müddətdə həyata keçirdiyi tədbirlər, gördüyü böyük işlər milli zəmində köklü dəyişikliklərə – orta əsr Azərbaycanını müasir dünyaya qovuşdurmağa hesablanmışdı. Azərbaycan türkcəsinin dövlət dili elan olunması, milli mətbuatın genişlənməsi, Bakı Dövlət Universitetinin təsis edilməsi, Azərbaycan Dövlət Teatrının, müxtəlif cəmiyyət və birliklərin yaranması və s. AXC-nin səmərəli fəaliyyətinin əsaslı strateji məqsədlərə hesablanmasından xəbər verirdi. Bütün bunlar isə Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyatda mövzu və məzmunca yeni əsərlərin meydana gəlməsinə, istiqlal ideyası ətrafında fərqli cərəyan və üslubların yaranmasına, tənqidçi və maarifçi realizmlə bərabər, romantizmin vüsət götürməsinə səbəb olmuşdu. 1918-ci il mayın 28-də Azərbaycan xalqı elə bir dövlət quruluşuna nail oldu ki, nəinki Şərq üçün, hətta Qərbin özü üçün belə bu bir möcüzə hesab oluna bilərdi. Tiflis şəhərində müstəqil dövlət olduğunu bəyan etmiş Azərbaycan Xalq Cümhuriyyəti tezliklə Gəncə şəhərinə köçdü və qədim Gəncə cümhuriyyətin ilk paytaxtı kimi adını tarixə yazdı. Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığı da Cümhuriyyət dövründə böyük inkişaf yolu keçib. Azərbaycan ədəbiyyatını, mədəniyyətini, incəsənətini, tarixini, etnoqrafiyasını təbliğ etmək məqsədilə məqalələr, kitablar yazır, onları Avropa ölkələrində çap etdirmişlər.*

***Açar sözlər:*** *cümhuriyyət dövrü, poeziya, milli oyanış, istiqlal mücadiləsi, vətənpərvərlik, milli ruh, milli ideologiya.*

## Giriş

*Dünyada gedən yeniləşmə prosesində olduqca geri qalmış, I Dünya müharibəsində uduzaraq ölkə daxilində siyasi və iqtisadi fiaskoya uğramış, beynəlxalq aləmdə "xalqlar həbsxanası" kimi bədnam ad qazanmış Çar imperiyasının dağılması adıçəkilən məkanda milli –azadlıq hərəkatlarına elə bir təkan verdi ki, nəinki Rusiyanın imperiyapərəst qüvvələri, hətta bütövlükdə beynəlxalq irtica onun qarşısını almaqda aciz qalaraq kənara çəkilməli oldu. İslam-şərq kontekstindən milli kimliyin dərkinə qədər böyük tarixi yol keçmiş, milli istiqlal məfkurəsinə yiyələnmiş Azərbaycan ziyalıları da yaranmış bu tarixi ºəraitdən istifadə edərək millətin iddia və iradəsini ortaya qoydular.*

1918-ci il mayın 28-də Azərbaycan xalqı elə bir dövlət quruluşuna nail oldu ki, nəinki Şərq üçün, hətta Qərbin özü üçün belə bu bir möcüzə hesab oluna bilərdi. Tiflis şəhərində müstəqil dövlət olduğunu bəyan etmiş Azərbaycan Xalq Cümhuriyyəti tezliklə Gəncə şəhərinə köçdü və qədim Gəncə cümhuriyyətin ilk paytaxtı kimi adını tarixə yazdı. AXC yalnız sentyabrın 17-də, Bakı erməni-daşnak qüvvələrindən azad edildikdən sonra bugünkü

paytaxta köçə bildi. Cümhuriyyət qurucularının adı xalqa çox-çox əvvəldən bəlli idi. Müstəqillik elan olunandan 1918-ci il iyunun 18-nə kimi parlament rolunu hələ həmin ilin mayın 27-də yaradılmış və Məmmədəmin Rəsulzadənin rəhbərlik etdiyi Müvəqqəti Milli Şura icra etmişdi. 1918-ci il dekabrın 7-də çağırılmış ilk parlamentin sədri Ə.M.Topçubaşov, müavini H.B.Ağayev və katibi Rəhim Vəkilov seçildilər. Onun əsas heyətini keçmiş Milli Şuranın 44 üzvü, parlamentə keçmiş milli komitələrin xətti ilə şəhər və qəzalardan 36 müsəlman deputat təşkil edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti millətin genetik yaddaşına, etnik-kulturoloji dəyərlərinə, milli-mənəvi amalına uyğun olaraq qədim dövlətçilik ənənələrini bərpa etməklə bərabər, demokratik, hüquqi prinsipləri, ən başlıcası xalq hakimiyyəti anlayışını bütün məzmunu ilə ölkə həyatına gətirməklə sənət və ədəbiyyatı istiqlal məfkurəsi və ideyasını bəyan etməyə səfərbər etdi. 1917-1918-ci illərdə ədəbiyyat qaranlıqlara ilk işıq salan məşəl, millətin sevinc və həyəcanının ifadəçisi olmuşdu. Məmməd Əmin Rəsulzadə "Çağdaş Azərbaycan ədəbiyyatı" adlı məqaləsində yazırdı: "Ədəbiyyat bu həyəcana tərcüman olur, milli istiqlal günlərinə yaxınlaşmanın şövqi və sevinci içində yaşayır, böyük ümidini bütün həssaslığı ilə ifadə edirdi" (5, s.54). M.Ə.Rəsulzadə məqalənin davamında "soyuq Sibirin uzaq tundralarında, sovet cəlladlarının vəhşi işgəncələrinə davam gətirməyərək vətən mücahidlərinin bəxtinə əcəl camını içmiş şair Əliyusifin" qeyd edilən günlərdəki ədəbi fəaliyyətini xatırladaraq onun aşağıdakı misralarını nümunə olaraq vermişdir.

Dedilər k, öksüz Şərqin xəzan görmüş bağında,
Yeni başdan qızılgüllər, yasəmənlər açacaq.
Bu qaranlıq gecələrin issiz, tutqun çağında
Almaz yıldız doğacaq da, ufka yıldız saçacaq.
Dedilər ki, Azərbaycan türklərinin elində
Əski atəş yenə başdan alovlanmış, coşmuşdur.
Əvvət, əvət bir gün Şərqə Kəbə olan bu ölkə
Yenə olnu təqdis ilə ziyarətgah edəcək.

AXC-nin qısa müddətdə həyata keçirdiyi tədbirlər, gördüyü böyük işlər milli zəmində köklü dəyişikliklərə – orta əsr Azərbaycanını müasir dünyaya qovuşdurmağa hesablanmışdı. Azərbaycan türkcəsinin dövlət dili elan olunması, milli mətbuatın genişlənməsi, Bakı Dövlət Universitetinin təsis edilməsi, Azərbaycan Dövlət Teatrının, müxtəlif cəmiyyət və birliklərin yaranması və s. AXC-nin səmərəli fəaliyyətinin əsaslı strateji məqsədlərə hesablanmasından xəbər verirdi. Bütün bunlar isə Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyatda mövzu və məzmunca yeni əsərlərin meydana gəlməsinə, istiqlal ideyası ətrafında fərqli cərəyan və üslubların yaranmasına, tənqidçi və maarifçi realizmlə bərabər, romantizmin vüsət götürməsinə səbəb olmuşdu. O dövrün mövzularına baxaq: Müstəqil Azərbaycanın üçrəngli bayrağının mədhi, milli dövlətə sevgi, Azərbaycan torpaqlarının erməni qəsbkarlarından müdafiəsi və azad edilməsi, müstəqilliyin taleyi ilə bağlı narahatlıq və bir çox digər taleyüklü məsələlər. "İntibah düşüncəsi Xalq Cümhuriyyəti dövründə: ədəbiyyat, dil, mədəniyyət quruculuğu" adlı məqaləsində Yaşar Qarayev haqlı olaraq bu dövrü ədəbiyyatın zirvə dövrü adlandırırdı: "Hələ islama qədər neçə yüz il tarixi olan, islamla özünü yenidən dərk edən və XIX əsrin Qərb-Şərq məcrasında təzə mərhələyə yüksələn Azərbaycan ədəbiyyatında üç əvvəlki ədəbi dövrdən sonra onların hər üçünü özündə cəmləyən yekun dövrü (XX yüz il) gəlir və özünün zirvə məqamına – müstəqil Azərbaycan dövləti illərinə çatır-1918-1920-ci illərdə" (4, s.155). Cümhuriyyət illərində nəsr və dramaturgiya ilə müqayisədə poeziya daha böyük uğur qazanmışdı (3, s.11). Həyatda baş verən hər bir dəyişikliyi operativ şəkildə və böyük coşqu ilə obrazlaşdıran lirik poeziya sürətlə yayılmaq imkanından istifadə edərək milli istiqlalı ürəklərə və məfkurələrə hopdurmağa çalışırdı. Məhəmməd Hadi, Hüseyn Cavid,

Abdulla Şaiq, Cəfər Cabbarlı, Əhməd Cavad, Ümgülsüm Sadıqzadə, Əli Yusif və başqaları bu dövrdə poeziyanı istiqlal ideyasının daşıyıcısına çevirərək xalqı bu ilahi nemətin keşiyində durmağa səsləyirdilər. Ümumiyyətlə, tədqiqatçılar tərəfindən Cümhuriyyət dövrü poeziyası mövzu və problematika baxımında aşağıdakı kimi ümumiləşdirilmişdir: "1. Cümhuriyyət, istiqlal, müstəqillik və bu atributlardan doğan təəssüratların inikası: 2. Milli düşüncədən uzaq, mövzu və problem etibarilə səsləşməyən poetik parçalar" (7).

AXC dövrünün istedadlı şairlərindən biri də Seyid Hüseynin həyat yoldaşı, M.Ə.Rəsulzadənin qohumu, ən başlıcası isə səsini bolşevik hökumətinin belə batıra bilmədiyi Umgülsüm xanım Sadıqzadə olmuşdur. 1900-cu ildə Bakı ətrafında doğulan U.Sadıqzadə 14 yaşından "Açıq söz", "Birlik", "İqbal", "Yeni iqbal", "İstiqlal", "Azərbaycan", "Ədəbiyyat", "Şərq qadını" kimi mətbu orqanlarda çıxış etməyə başlamış, publisistik və poetik nümunələrini nəşr etdirmişdir. Azərbaycan Xalq Cümhuriyyətini böyük coşqu ilə qarşılayan Umgülsüm Sadıqzadənin "Əsgər anasına", "Çəkil, dəf ol", "Bir mayıs günündə", "Dərdli nəğmə", "Yurdumuzun qəhrəmanlığına", "Yolunu bəklərdim" şeirlərində azadlığını, müstəqilliyini əldə etmiş Azərbaycan xalqına, onun yenicə qurduğu azad, müstəqil dövlətinə məhəbbət, Vətənin sabahı üçün narahatlıq, xalqına çətin anında köməyə gələn, onu düşmən caynağından qurtarmağa çalışan Türk ordusuna sevgi, istiqlaldan doğan qürur hissi öz əksini tapmışdır. U.Sadıqzadənin AXC-nin süqutundan sonrakı yaradıcılığında isə bu süqutun səbəbləri, xalqın başına gətirilən müsibətlər, tarixi ədalətsizliklər geniş yer almışdır. Umgülsüm rus işğalına qarşı səsini ilk yüksəldən, bayrağımızın endirilməsindən ilk fəryad qoparan şairlərdən biri olmuşdur. Onun "Hicran" və "Bayrağım enərkən" şeirləri Azərbaycan ədəbiyyatında bolşevik işğalına qarşı yazılmış ilk cəsarətli əsərlərdəndir. Şair "Bayrağım enərkən" şeirində üç rəngli bayrağın enməsini millətinin ocağının sönməsi kimi mənalandırmışdır:

Yazıq səni Bayrağım,
 endirdilər, öyləmi?
Səni yıxıb devirən o zəhərli ruzigar,
O haqq yeyən haqsızlar,
 vəhşilər, tanrısızlar
Yanar ocağımı da
 söndürdülər, öyləmi?
Bir röyamı oldu o gördüklərim həpsi?
Bağlandımı üzümə türk elinin qapısı?"

Lakin dərin hüzn, dərd-kədər, mənəvi ağrılar ifadə edən bu misralar şairdə pessimizm yaratmırdı, o inanırdı ki, günün birində millətin qəlbində yenidən atəş parlayacaq, o bayraq yenidən yüksələcək:

...Ey buzlu şimaldan qopan rüzgar!
Toxunma qəlbimə, atəşi parlar,

Bu mövzudakı başqa bir şeirində də müəyyən tərəddüdlər olsa da azadlıq arzusu, istiqlal ehtirası şübhələrə qalib gəlir:

Günəşim bir daha doğmayacaqmı?
Vəhşi qaranlığı boğmayacaqmı?
Kölgələri şəfəq qovmayacaqmı?
Sordum, ümidini qırma dedilər.

1937-ci ildə həbs edilən şair yalnız 1945-ci ildə azadlığa qovuşa bilmişdir. Səkkiz illik əzablı həbsxana illərində yazdığı məktublar 2015-ci ildə "Sənət.az" saytı tərəfindən nəşr edilmişdir. Sonuncu Bakı xanı Hüseynqulu xanın nəslindən olan Ə.Abid ilk məktəb təhsilini anası Reyhan xanımdan, millətçiliyi isə qardaşı Əlabbas Müznibdən öyrənmişdi. Ə.Müznibin naşiri və redaktoru olduğu "Dirilik", "Babayi-Əmir" jurnallarında çalışan Ə.Abidin Azərbaycan Xalq Cümhuriyyəti qurulanda 20 yaşında idi. Bu dövrdə o, vətənpərvərlik şeirləri yazır, istiqlalı və Şərqin ilk demokratik dövlətini tərənnüm edirdi. Lakin onun ən kəskin şeirləri Milli Demokratik Cümhuriyyət bolşevik ordusu tərəfindən işğal edilərkən və ondan sonrakı dövrlərdə yazılmış, şair repressiyalara, təqib və həbslərə qarşı qəti etirazını bildirmişdir. Tədqiqatçıların bütün iddialarına baxmayaraq, heç bir mənbədə Gültəkinin Əmin Abidlə eyni şəxs olduğuna heç yerdə rast gəlinmir (2). Tədqiqatçı Əli Şamil bunu aşağıdakı kimi izah etmişdir: "M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Ə.Cəfəroğlu Əmin Abidi sovet irticasından qorunmaq üçün Gültəkinin şəxsiyyətini müəyyənləşdirə biləcək bir işarəyə belə yer qoymayıblar. Buna görə də Azərbaycanda Əmin Abidin Gültəkin olduğunu bilməyiblər. Ə.Abid irticadan qorunmaq üçün işə girərkən doldurduğu anket və yazdığı tərcümeyi-halda da Gültəkin imzası ilə şeirlər yazdığını və "Yeni Kafkasiya" ilə əməkdaşlıq etdiyini, Qəzvində, Ərzurumda olduğunu gizlədib" (1, s. 8).

Poeziyada Hüseyn Cavid, Əli Şövqi Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Davud Ağamirzadə və başqa sənətkarlarımız Xalq Cümhuriyyətinin mövcud olduğu dövrün ümumi mənzərəsini verdiyi kimi, nəsrdə də bu illər Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Seyid Hüseyn, Tağı Şahbazi kimi tanınmış ədiblərin qələmi ilə əks etdirilmişdir. Hekayələrində qadın azadlığı, cəhalət, feodal əsarəti ("Konsulun arvadı" "Xanın təsbehi", "Qəssab") problemlərinə toxunan Cəlil Məmmədquluzadə "Zırrama" hekayəsində mənfi əxlaqi keyfiyyətləri, milli mənliyin itirilməsini, kütbeyinlərin azadlığa etirazını sərt şəkildə tənqid edirdi. Ə.Haqverdiyevin "Mirzə Səfər", Seyid Hüseynin "Həzin bir xatirə", "İsmailliyə" hekayələri dövrün real mənzərəsini verir, istiqlalı başa düşməyənləri, milli təəssübdən uzaq, öz xırda maraqları ilə yaşayanları istehza hədəfinə çevirirdi. Seyid Hüseyn "İsmailliyə" hekayəsində Azərbaycanı metafora etmiş, bütün ruhu və qəlbi ilə bağlı olduğu doğma yurdun obrazını yaratdığını bildirirlər. Bütün zamanlarda öz fəallığı ilə seçilən Abdulla Şaiqin "Əsrimizin qəhrəmanları" romanında birinci dünya müharibəsi, çar Rusiyasının tənəzzülü, Oktyabr inqilabı və s. hadisələrə toxunulmuş, həmin dövrlərdə milli istiqlal ideyasının gənc nəslin şüurunda möhkəmlənməsi, mübarizəyə hazırlıq və s. tarixi faktlar yazıçı təxəyyülündən keçirilərək bədii məzmun qazanmışdır. Onu da qeyd edək ki, romanının bir hissəsini Cümhuriyyət dövründə qələmə alındığı üçün həmin dövrdə cərəyan edən hadisələr də diqqət mərkəzinə çəkilmişdir. Yazıçı Ağababa Yusifzadənin "Sınan qanad" romanında xalqın, millətin dərd-səri önə çəkilmiş, vətənin azad və abadlığı ideyaları vətəndaş nöqteyi-nəzərindən işıqlandırılmışdır. Tədqiqatçılar Hüseyn Cavidin "İblis" faciəsinin "bu illərdə cərəyan edən hadisələrin ümumi ruhundan və mahiyyətindən qaynaqlan"dığını bildirirlər. Digər tərəfdən, "İblis"də Hüseyn Cavid Turanın xilası üçün yollar arayır: "Ən qatı bir inqilabçı ədasıyla yazılan bu əsərində şair onu tərk etməyən ana düşüncəsinə - miliyyət və türrkçülük fikrinə xüsusi bir yer ayırır: Turanın qurtulması üçün yalnız qılıncın kifayət olmadığını bir qəhrəmanın dili ilə

Turanda qılıncdan daha kəskin ulu qüvvət
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!..

-deyə ifadə edir (6, s. 62).

Bu dövrdə ərsəyə gələn ədəbi abidələr içərisində milli birlik, mənəvi bütövlük ideyalarını özündə ehtiva edən Cəlil Məmmədquluzadənin "Anamın kitabı" pyesini xüsusi qeyd etməliyik. "Böyük mütəfəkkirin fikrincə, birliyi və bütövlüyü olmayan millətin iqtisadi,

siyasi, mənəvi güc, qüdrət sahibi olması, tarix səhnəsində uzun müddət duruş gətirməsi mümkün deyildir. Dramaturq pyesdə bir ananın övladları olan Rüstəm bəy, Mirzə Məhəmmədəli, Səməd Vahid timsalında köləlik və əsarətin millətin xarakterində qoymuş olduğu acı nişanələrə diqqəti yönəldə bilmişdir. Eyni zamanda, müəllif millətin ruhuna hopdurulmuş yabançı xislətləri diqqət mərkəzinə çəkməklə kifayətlənməmiş, bu bəlalardan xilas olmağın yollarını göstərmişdir”.

Azərbaycanda Xalq Cümhuriyyətinin fədakar nümayəndələrindən biri, ideoloq, M.Ə.Rəsulzadənin əqidə yoldaşı Mirzəbala Məmmədzadə müstəqil Azərbaycan dövləti qurulduğu vaxtdan (1918-ci il 28 may) onun möhkəmlənməsi uğrunda mübarizəyə qoşulmuş və ömrünün sonunadək istiqlal ideyası uğrunda savaşı davam etdirmişdir. Onun redaktorluğu ilə altında "Gənclər yurdu" jurnalı nəşr olunmuş, Tbilisidə "İki inqilab arasında" (1918) kitabı kütləvi tirajla buraxılmışdır. M.Məmmədzadə bu dövrdə yazıçı qələmini də yerə qoymamış, 1919-cu ildə sentyabrın 16-da onun "Bakı uğrunda mübarizə" pyesi Azərbaycan teatr səhnəsində tamaşaya qoyulmuşdur.

Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığı da Cümhuriyyət dövründə böyük inkişaf yolu keçib. “Bu özünəməxsusluq, hər şeydən öncə, ədəbi irsin milli-nəzəri fikir müstəvisində təhlil və tədqiqinin aktuallıq kəsb etməsi, həmçinin ədəbiyyatşünaslığı məşğul edən problemlərin daha operativ şəkildə diqqət mərkəzinə çəkilməsi ilə şərtlənməkdədir. Belə ki, Cümhuriyyət dövründə bir tərəfdən klassik ədəbi irsin tədqiqi istiqamətində mühüm addımlar atılmış, digər tərəfdən çağdaş ədəbi proses yetərincə dəyərləndirilmiş, həmçinin ədəbiyyatın nəzəri-estetik problemlərinin araşdırılması ilə bağlı müəyyən işlər görülmüşdür”. Cümhuriyyət dövründə Seyid Hüseyn “Yaşıl qələm” ədəbi-elmi cəmiyyətini yaradır. Bu cəmiyyət Məmməd Əmin Rəsulzadə, Hüseyn Cavid, Seyid Hüseyn, Nəcəf bəy Vəzirov, Üzeyir Hacıbəyov, Abdulla Şaiq, Əhməd Cavad, Cəfər Cabbarlı, Salman Mümtaz, Əli Yusif və digər ziyalıları, sənətkarları özündə birləşdirirdi. Yusif Vəzir Çəmənzəminli bu dövr həm də Azərbaycan ədəbiyyatşünaslığına dəyərli əsərlər vermişdir. 1919-cu ildə İstanbulda nəşr edilmiş “Azərbaycan ədəbiyyatına bir nəzər” monoqrafik tədqiqat əsəri öz elmi-nəzəri əhəmiyyəti ilə seçilir. Firudin bəy Köçərli Tiflisdə “Azərbaycan teatrının ədəbiyyatı” əsərini rus dilində nəşr etdirir. F.Köçərli elə bir dövrdə elmi fəaliyyətə başlamışdı ki, o dövrdə Rusiyada ictimai-siyasi ziddiyyətlər kəskinləşmiş, mərkəzi hakimiyyət xeyli zəiflədiyindən ucqarlarda müstəqillik arzusu yüksələn xətlə getməkdə idi. Belə bir zamanda Azərbaycanda da milli şüurun güclənməsi dramaturgiya, nəsr, nəzm və s. da özünü daha çox hiss etdirir, ədəbiyyat ideyaca zənginləşir, dilimizdə nəşr olunan qəzet və jurnalların sayı sürətlə artırdı. Görkəmli alim Firudin bəy Köçərli bu dövrdə Azərbaycan ədəbiyyatı tarixinin sistemli şəkildə öyrənilməsi məsələsini qarşıya qoyur “Azərbaycan türklərinin ədəbiyyatı” əsərini, “Azərbaycan ədəbiyyatı” əsərlərini yazır. Yusif Vəzir Çəmənzəminli isə öz əsərlərində Nəsimi, Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Qasım Bəy Zakir, Mirzə Ələkbər Sabir və başqa şairlər, sənətkarlar haqqında, onların yaradıcılığı barədə nəzəri fikirlərini səsləndirir. Mirzə Fətəli Axundov irsini xüsusi qiymətləndirən Y.Çəmənzəminli onunla bağlı yazırdı: “Milliyyət hissi birinci dəfə olaraq bu ədibdə oyanmışdır və intibahın dəlili olan kritisizm də Mirzə Fətəlinin əsərlərilə başlayır”.

Cümhuriyyət dövrünün araşdırıcılarından biri də Cavad xan Ziyadoğlu-Qacarın nəvəsi Adilxan Ziyadxanlı olmuşdur. Azərbaycan milli istiqlal hərəkatının görkəmli nümayəndəsi, dövlət və ictimai-siyasi xadim olan Adil xan Ziyadxanlı1919-cu ildə nəşr olunmuş “Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat” əsərində klassik irsimizi yüksək qiymətləndirir, milli ədəbiyyatımızın kontekstində onun tədqiqininin aparılmasını vacib sayırdı. Məlum olduğu kimi, bu dövrdə milli irsə iki fərqli münasibət var idi: bir qrup hesab edirdi ki, Azərbaycan dilində yazılmayan bədii əsərlər Azərbaycan xalqının milli sərvəti deyil, digər qrup, o cümlədən Adil xan Ziyadxanlı isə əks mövqedən çıxış edir və ərəb, fars dilində yazılmasından asılı olmayaraq Azərbaycan ədiblərinin yaradıcılığının milli xəzinəyə daxil

edilməsinin vacibliyini vurğulayırdı (9, s. 10). Bundan əlavə, Adil xan Ziyadxanlının tədqiqatında "...ayrı-ayrı klassiklərin yaradıcılığının bağlı olduqları ədəbi-kulturoloji və ictimai-siyasi mühit kontekstində təhlilə cəlb olunması bütövlükdə milli ədəbiyyatın regional çalarlarının üzə çıxarılmasına imkan vermişdir" (8, s. 7).

**Nəticə**

*Ümumiyyətlə, həmin dövrdə Azərbaycanın əksər ziyalıları dövlət qurculuğu ilə bərabər, Azərbaycan ədəbiyyatını, mədəniyyətini, incəsənətini, tarixini, etnoqrafiyasını təbliğ etmək məqsədilə məqalələr, kitablar yazır, onları Avropa ölkələrində çap etdirmişlər. Bu sırada Əlimərdan bəy Topçubaşovu, Ceyhun Hacıbəylini və digərlərini göstərə bilərik. Bir sözlə, 23 ay ömrü olan Azərbaycan Xalq Cümhuriyyəti Məmməd Əmin Rəsulzadənin dediyi kimi, xalqa təkcə istiqlal və azadlığı dadızdırmadı, həm də o, ictimai şüurda, mənəviyyatda, əxlaqda, ədəbiyyatda, sənətdə, mədəniyyətdə elə bir inqilabi sıçrayışa, dönüşə səbəb oldu ki, dünyanın ən totalitar rejimi bütün repressiya maşınlarını işə salsa da onu yaddaşlardan silə bilmədi. Yazılan kitablar, qəzetlər, məqalələr yandırılıb məhv edilsə də, şüur və ürəklərə sancılmış istiqlal toxumları yenidən boy verdi və müstəqil Azərbaycan Respublikasına gətirib çıxardı.*

**Ədəbiyyat siyahısı:**


1. Cavanşir C. Rəsulzadənin sevimli şairi, Azərbaycanın ilk "qorqudşünası". "Ədalət" qəz., Bakı, 2013, 28 may
2. Əhmədov B.B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi: 3 clddə, I c. Bakı: Elm və təhsil, 2011, 480 s.
3. Həsənov B., Mustafayeva A., Əliyev S., Verdiyeva N. Ədəbiyyat – 9: "Ədəbiyyat" fənni üzrə müəllim üçün metodik vəsait. Bakı: "Bakı" nəşriyyatı, 2016, 223 s., s.11
4. Qarayev Y.V. İntibah düşüncəsi Xalq Cümhuriyyəti dövründə: ədəbiyyat, dil, mədəniyyət quruculuğu / QarayevY.V. Seçilmiş əsərləri: 5 cilddə, V c., Bakı, Elm, 2016, s.155-180, s.155
5. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 112 s.,s 54
6. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 112 s.,s.62
7. Şərifova S.Ş. XX ƏSR Azərbaycan ədəbiyyatına baxış, http//www.academia/edu/11899224/
8. Şükürova G.V. Əsrin böyük səadəti – Xalq Cümhuriyyəti dövründə ədəbiyyat. "525-ci qəzet", Bakı, 2009, 10 dekabr, № 228, **s.7**
9. Ziyadxanov A.Ə. Azərbaycan. Bakı: Azərbaycan nəşriyyatı, 1993, 176 s.


**Танзила Рустамханлы**

**В литературе Республиканского периода пробуждение национального пение**

За короткое время осуществляющие мероприятия со стороны Азербайджанской народной Республики большие работы, национальной уровне радикальные изменение,в средние века Азербайджана получал доступ к современной эпохе.

Обьявление азербайджанского языка государственным, расширение национальной прессы, создание Бакинского государственного университета, создание Азербай-

джанского Государственного Театра, создание разных обществ и т д. Сообщал о расширении эффективной работы Азербайджанской народной Республики обоснованных стратегическим целям. Всё это в период Азербайджанской народной республики появлении в литературе новых произведении, тем и созданием стилей, с критиком и представителем реализма был причиной размаха. 28 мая1918 году Азербайджансий народ достиг такой государственной структуре, что не только Югу даже Западу тоже мог бы считаться чудом. В Тбилиси объявивщий независимым государством Азербайджанская народная Республика вскоре переехала в Гянджу и написала в историю древнию Гянджинскую Республику как столицу. Чтобы достигнуть своей цели и пропаганду они напечатали в Европейских странах Азербайджанскую литературу, культуру, искусство, историю этнографию пишет книги и статьи.

***Ключевые слова:*** *период республики, поэзия, национальное пробуждение, борьба за независимость, патриотизм, национальный дух, национальная идиология.*

**Tanzile Rustemkhanli**

**National awakening period of the literature of the republic**

The actions the AXC has performed in a short time and the great work it has done have been based on radical changes on a national level - to bring medieval Azerbaijan into the modern world. Announcement of the official language of the Azerbaijani language, extension of the national press, establishment of the Baku State University, formation of the Azerbaijan State Theater, various societies and trade unions, etc. The efficiency of the AXC was calculated for key strategic objectives. All this has led to the emergence of new works in the themes and contents of the Democratic Republic of Azerbaijan, to the emergence of various trends and styles around the idea of independence and the development of romanticism and of critical and enlightening realism. On May 28, 1918, the people of Azerbaijan reached such a state structure that it could be regarded as a miracle not only for the East, but also for the West itself. The Democratic Republic of Azerbaijan, which declared its independence in Tbilisi, moved quickly to Ganja and wrote the name of the ancient capital Ganja as the first capital of the republic. Literary criticism and literary criticism in Azerbaijan have also developed massively in the Republic. He wrote articles and books to promote Azerbaijani literature, culture, art, history and ethnography and published them in European countries.

***Keywords:*** *republican period, poetry, national awakening, independence struggle, patriotism, national spirit, national ideology.*

Redaksiyaya daxil olma tarixi: 17.06.2019
Çapa qəbul olunma tarixi: 11.07.2019

Akademik **Teymur Kərimli** tərəfindən
çapa tövsiyə olunmuşdur.